

# KÖNLÜMÜZƏ GƏLƏN BAHAR

*Səməd Vurğunun xatirəsinə*

Yenə bahar gəldi, güldü çəmənlər,
Oxudu gül üstə, şehdə çimənlər.

Göy üzü açıldı qız örpəyi tək,
Çırpındı qönçələr quş ürəyi tək.

Küləklər tərpətdi baxçanı, bağı,
Bağlar qarşıladı gələn qonağı.

Açıldı ürəklər, güldü könüllər,
Qönçələr üstündə ötdü bülbüllər.

Büründü yaşıla bomboz təpələr,
Hərdən narın-narın yağış səpələr.

Kolların dibindən küskün bənövşə,
Can atdı yerisin, çıxsın bir döşə.

Zəmilər içində boy verdi lalə,
Allandı, od saçdı qızıl bir halə.

Gözümün önündən keçdi zamanlar,
Gül açdı, dil açdı, dindi gümanlar.

Gördüm ki, xaraba yurdlar oyanır,
Ümidlər, inamlar, qurdlar oyanır.

Gülür üzümüzə torpaq da, daş da,
Ümidlər göyərir, bitir yaddaşda.

Sevgilər təzədən gül açır, gülür,
Aşiqlər eşq ilə yol açır, gəlir.

Sevinir yollar da yazın üzünə,
İlham süfrə açır sözün üzünə.

Bu Novruz - Yeni gün, sevda çələngi,
Ötən zamanlara vida çələngi.

Qəlbimiz, ruhumuz sevgiylə dolur,
İnamsız, ümidsiz duyğular solur.

Baharı gözləyən gözlərimizdə,
Həsrət oda yanır közlərimizdə.

Axır ki, gün gəldi bu yazı gördük,
Bu yazda gül açan bəxt yazı gördük.

Gördük təzə yağış, ötdü yer üstə,
Gördük haqq-ədalət bitdi yer üstə.

Sevindi qəlbimiz diləklərimiz,
Gəldi təzə nəfəs - küləklərimiz.

Xudafərin üstə güldü diləklər,
Bir təzə eşq ilə vurdu ürəklər.

Qələm də dilləndi, dedi "yaz" mənə,
Sözünlə bəzək vur təzə çəmənə.

İstək məni çəkdi dağlara sarı,
Sökülsün qəlbimdən bu qəm hasarı.

Çox uzanan qışın bağrı yarıldı,
Sinəmin bülbülü sözə sarıldı.

Uçdum xəyal-xəyal Araz boyunca,
İçdim bahar eşqi, içdim doyunca.

Bu qəmli sahildə Vurğunu gördüm,
Ruhuna eşqimdən bir çələng hördüm.

Araz qırağında dayanan qatar,
Bir durna köçündə uyuyar, yatar.

Başımın üstündən ötən buludlar,
Dərdli Təbrizimə salam aparar.

Şəhriyarın səsi gəldi, güllərdi,
Heydər baba yanğısında dilləndi.

"Ayrılığın odu çıxdı canımdan,
Namərd dünya keçdi mənim qanımdan".

Deyirəm ayrılıq qəmdən, kədərdən,
Açılsın qəlbimiz bir xoş xəbərdən.

Muzeylər yaşatsın ağrı, acını,
İnsanlıq daşısın sülhün tacını.

Təzə qapı açsın bu bahar bizə,
Yenə işıq gəlsin gözlərimizə.

Qayğıdan başımız açılsın görək,
Yazın gül üzündən bir gülüş dərək.

Doğrular ucalsın, düz taxta çıxsın,
Yalanın əlləri boş vaxta çıxsın.

İnamı, ümidi toxusun könlüm,
Sevgi nəğməsini oxusun könlüm.

Eşqimiz çağlasın min bahar boyu,
Əbədi çalınsın bir vətən toyu.

Vurğunun ruhuna haqqı-sayım var,
Xələfli sözündən bayram payım var.

*Əli Rza* Xələfli
*2021*

Kredo.- 2023.- 17 mart.- S.1.